1_Layout 1 01.04.2025 9:00 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 6 (694)

2 aprel 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# ZƏFƏR COŞQULU NOVRUZ

## *Xilaskar lider İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda alovlandırdığı bütöv Azərbaycanın bayram tonqalları həm də şanlı qələbəmizi simvolizə edir*

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Zəfər coşqulu Novruz" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

**Düz beş ildir ki, xalqımızın arzu və ümidlərindən qanadlanaraq Qarabağ və Şərqi Zəngəzurda şölə saçan bütöv Azərbaycanın bayram tonqallarını Müzəffər Ali Baş Komandan İlham Əliyev alovlandırır. Şuşada, Suqovuşanda, Talış kəndində, Xankəndi şəhərində, Həsənriz kəndində Qarabağın xilaskarı İlham Əliyevin öz əlləri ilə Novruz tonqalı alovlandırması həm də yeni başlanğıcların qoyuluşunu, bu yerlərə həyatın qayıdışını, insanların tarixi torpaqlarında əbədi xoşbəxt yaşayacaqlarını simvolizə edir.**

**Düz beş ildir ki, el bayramımız yurdumuzun dörd bir tərəfində ikiqat coşqu ilə qeyd edilir. Dədə-baba torpaqlarından didərgin salınmış keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə Qarabağ və Şərqi Zəngəzura döndükləri, əziz bayramlarını el-obalarında qeyd etdikləri üçün özlərini dünyanın ən xoşbəxt insanları sanırlar...**

### Bayram bayrama qarışıb

Xoş ənənəsinə xas olaraq bu il martın 18-də Novruz tonqalını Ağdərənin Həsənriz kəndində alovlandıran xilaskar lider İlham Əliyev kənd sakinlərinə bayram təbriklərini bu sözlərlə çatdırdı: "Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur".

Dövlətimizin başçısının da bəyan etdiyi kimi, Vətən müharibəsində qazandığımız şanlı Zəfər sayəsində yurdumuzun dörd bir yanı bayram əhval-ruhiyyəsinə bürünüb. Novruz və digər milli bayramlarımız ikiqat təntənə, böyük qürur və xoşbəxtliklə qeyd olunur.

Azərbaycanı Zəfər təntənəli günlərə yetirən işıqlı yolun təməli isə vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Müasir dövlətçiliyimizin banisi Ulu Öndər hər zaman bildirirdi ki, torpaqlarımız mütləq işğaldan azad ediləcək, məcburi köçkünlərimiz öz yurdlarına qayıdacaqlar. 1998-ci il martın 20-də Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində Ümummilli Lider bununla bağlı böyük inamını qətiyyətlə belə ifadə etmişdi: "Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".





Bu gün Qarabağda və Şərqi Zəngəzurda Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən alovlandırılan bayram tonqalları Ulu Öndər Heydər Əliyevin vaxtilə ifadə etdiyi böyük inamından doğan arzuların gerçəyə çevrilməsinin rəmzidir.

### Həyat yenidən başlayır

Torpaqlarımız işğaldan azad ediləndən dərhal sonra Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında bu ərazilərdə genişmiqyaslı quruculuq işlərinə başlanıb. Böyük qayıdışı milli çağırışımız kimi müəyyənləşdirən Prezident İlham Əliyev hər zaman bildirir ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası bizim üçün prioritetlərdən biridir. Bu yerlər cənnətməkana çevriləcək.

Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı yaşayış məntəqəsi qurulur, böyük infrastruktur layihələri həyata keçirilir.

Prezident İlham Əliyev mütəmadi olaraq bu yerlərə səfərlər edir, görülən işlərlə yaxından tanış olur, açılışlar edir, bünövrələr qoyur. Görülən hərtərəfli işlərin nəticəsidir ki, Böyük qayıdış da sürətlənib və bir-birinin ardınca işğaldan azad edilmiş yurdlara qayıdış karvanları yola salınır.

Artıq Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulan 12 yaşayış məntəqəsinə sakinlər köçürülüb.

Keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşən Prezident İlham Əliyev növbəti dəfə martın 18-də - Novruz bayramı ərəfəsində, İlaxır çərşənbədə yolunu Ağdərə rayonundan saldı. 2023-cü ilin oktyabrın 15-də Azərbaycanın üçrəngli bayrağını qürurla Ağdərədə dalğalandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev bu rayonun Həsənriz, Suqovuşan kəndlərində sakinlərlə görüşdü, yeni evlərin açarlarını onlara təqdim etdi, açılışlar etdi.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında da iştirak etdilər.

Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni abidələrimiz də bərpa olunur. Çünki işğal dövründə məscidlərimiz də düşmən tərəfindən vəhşiliklə dağıdılıb, 67 məsciddən 65-i məhv edilib. Bu baxımdan, işğaldan azad olunmuş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işləri çərçivəsində yeni məscidlərin inşası da mühüm yer tutur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Suqovuşan kəndində də məscidin açılışında iştirak etdilər. Orucluq ayında və Novruz bayramı ərəfəsində açılışı edilən məsciddə eyni vaxtda 100-ə yaxın insan ibadət edə biləcək.

### Sənə bayram yaraşır, Vətən!

Düz beş il bundan əvvələ qədər bayram günlərində Allahdan yalnız bir dilək diləyərdik: gələn il Novruzu Qarabağda qeyd edək. Artıq saf diləklərimizin, arzularımızın çin olduğu, müqəddəs dualarımızın yerinə yetdiyi xoşbəxt günləri yaşayırıq. İndi Azərbaycan xalqı Novruzu, ümumiyyətlə, bütün əziz bayramlarımızı illərdir həsrətini çəkdiyimiz Vətən torpaqlarının - Qarabağın, Şərqi Zəngəzurun azadlığının yaratdığı qürurverici ovqatla, böyük Zəfərin yaratdığı şadyanalıq ab-havası ilə qeyd edir.

Bütün bunlar haqq-ədalətin bərpasıdır. Ölkəmizin, xalqımızın bu tarixi zirvəyə yüksəlməsi isə heç şübhəsiz Prezident İlham Əliyevin liderlik qabiliyyətinin, qətiyyətinin, milli maraqlarımızın keşiyində əzmlə dayanmasının nəticəsidir.

Suqovuşanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün bəyan etdiyi kimi: "... Amma ədalət o vaxt zəfər çalır ki, iradən də var, gücün də var və haqqın da çatır. Bütün bu amillər bizdə olduğu üçün biz bu tarixi Zəfəri çaldıq. Bu Zəfərin, mən yenə də deyirəm, son onilliklər ərzində tayı-bərabəri olmayıb, bundan sonra da olmayacaq. Baxın, bu gün müxtəlif yerlərdə müharibələr gedir. O müharibələr həm uzun müddət ərzində gedir və həm də, necə deyərlər, real nəticə ilə nəticələnmir. Bizim qələbəmiz tam idi, mütləq idi, birmənalı idi və vaxtilə "Qarabağ Ermənistandır" deyən adam bu gün deyir: "Qarabağ Azərbaycandır!".

## DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

***Hörmətli həmkarlar!***

**Novruz bayramı münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçularımızın ailə üzvlərini ürəkdən təbrik edirəm.**

**Özündə xalqımızın çoxəsrlik mədəni keçmişini və zəngin mənəviyyatını dolğun təcəssüm etdirən bu Novruz bayramı da yurdumuzun hər bir yerində xoş ovqatla qarşılanır, eyni zamanda günbəgün inkişaf edib qüdrətlənən ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində keçirilir.**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu dövlət siyasəti sayəsində işğaldan azad edilmiş şəhər və rayonlarımızın yenidən canlandırılması və əzəli torpaqlarımıza əbədi qayıdış naminə aparılan quruculuq işləri vətəndaşlarımızın bayram sevinclərini və qurub-yaratmaq əzmini daha da artırır.**



**Öz növbəsində parlaq Qələbənin böyük qürurunu yaşayan, xalqa və dövlətə sədaqətli xidməti möhtərəm Prezident tərəfindən yüksək qiymətləndirilən əməkdaşlarımız və hərbi qulluqçularımız da bu bayram günlərində insanların dinc həyatını, qanuni mənafelərini, hüquq və azadlıqlarını qətiyyətlə qoruyur, ölkəmizin davamlı tərəqqisinin mühüm şərtlərindən olan asayişin və təhlükəsizliyin möhkəmlənməsinə əhəmiyyətli töhfələr verirlər.**

**Qanunla müəyyən edilmiş mühüm vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəyinizə əminliyimi ifadə edərək hamınıza möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.**

**Bayramınız mübarək!**

**Vilayət Eyvazov**
**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik**

**19 mart 2025-ci il**

## DAXİLİ İŞLƏR NAZİRİ XİDMƏTƏ QƏBULLA BAĞLI NÖVBƏTİ SIRA BAXIŞI KEÇİRİB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 184 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 01.04.2025 9:15 Page 1



## HƏRBİ PROKURORLUQ İŞÇİLƏRİ NOVRUZ BAYRAMI VƏ HÜQUQİ MAARİFLƏNDİRMƏ İLƏ ƏLAQƏDAR HƏRBİ HİSSƏLƏRDƏ OLUBLAR



Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri, yüksəkrütbəli zabitlər hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları xalqı və dövləti qarşısında müstəsna xidmətləri olan Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər. Ardınca Dövlət Himni səsləndirilib.

Bundan sonra, baş prokuror Kamran Əliyevin və hərbi prokuror Xanlar Vəliyevin təbrikləri, eləcə də tövsiyələri şəxsi heyətə çatdırılıb.

Ardınca Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Eyni zamanda, Vətən müharibəsində əldə olunan möhtəşəm qələbə və lokal xarakterli antiterror tədbirləri, o cümlədən xalqın müdrikliyi və hərbçilərin şücaəti xüsusi vurğulanmaqla qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca "Konstitusiya və Suverenlik ili" çərçivəsində hüquqi maarifləndirici mövzularda çıxışlar edilib, hərbi qulluqçuların sualları cavablandırılıb, onların qayğı və problemləri dinlənilib.

Sonda hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

**AZƏRTAC**

## HƏRBİ HİSSƏLƏRDƏ BAYRAM TƏDBİRLƏRİ TƏŞKİL OLUNUB



Respublikamızda böyük coşqu ilə keçirilən Novruz bayramı hər il olduğu kimi, bu il də təsdiq olunmuş müvafiq plana əsasən Daxili Qoşunların hərbi hissələrində yüksək səviyyədə qeyd olunub. Belə ki, daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarə rəisinin "Novruz bayramının qeyd edilməsinə dair" müvafiq göstərişinə əsasən, bayram günlərində şəxsi heyətin ziyalılarla görüşlərinin keçirilməsi, hərbi hissələrdə bilik yarışlarının, viktorinaların, eləcə də



özfəaliyyət kollektivlərinin konsert proqramlarının təşkil edilməsi aidiyyəti vəzifəli şəxslər tərəfindən nəzarətdə saxlanılıb. Hərbi qulluqçular üçün bayram naharları hazırlanıb.

Qeyd edək ki, mart ayının 18-dən 22-nə kimi Hərbi İnstitut, 25031, 99713, 67987, 16075 və 16076 saylı hərbi hissələrdə Nümunəvi göstərici hərbi orkestrin mahnı ansamblı tərəfindən bayram konsertləri verilib. Sözsüz ki, hər il Daxili Qoşunların komandanlığının diqqət və qayğısı ilə hərbi hissələrimizdə bayram tədbirlərinin belə təmtəraqla keçirilməsi eyni zamanda hərbi qulluqçuların mədəni-estetik zövqünün formalaşmasına, onlarda ruh yüksəkliyinin yaranmasına da səbəb olur.

**Mətbuat xidməti**

## VETERAN NƏSİHƏTİ VƏ TÖVSİYƏSİ HƏR ZAMAN AKTUALDIR



Martın 15-də Daxili Qoşunların Hərbi İnstitutunda veteranlarımızla görüş keçirilib. Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov veteranlar Şirin Xəlilov, Çingiz Daşdəmirov, Əhliman İlməzov və Şiraz Həsənovu qəbul edərək onlarla görüşməkdən məmnun olduğunu söyləyib. Rektor Hərbi İnstitutun keçdiyi inkişaf yolu və bugünkü həyatı barədə danışıb. O, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində institutun müasir tələblərə cavab verən hərbi təhsil ocağına çevrildiyini diqqətə çatdırıb. Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov tərəfindən institutun fəaliyyəti ilə bağlı məsələlərin daim nəzarətdə saxlanıldığını, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirildiyini deyib.

Sonra veteranlar tərəfindən "Şəhidlər abidəsi" ziyarət olunaraq, önünə gül dəstələri qoyulub. Vətən naminə canlarını fəda etmiş hərbi qulluqçularımızın əziz xatirələri ehtiramla anılıb.

Hərbi İnstitutun akt zalında təşkil olunan mərasimdə veteranlar şəxsi heyətə təqdim edilərək, onların şərəfli xidmət və döyüş yolu barədə məlumat verilib.

Çıxış edən veteranlar Daxili Qoşunların yaradılma tarixi, erməni işğalçılarına qarşı şərəfli döyüş yolu, formalaşma və inkişaf mərhələləri, şəxsi heyətin təlim-tərbiyəsi prosesində qazanılan mühüm nailiyyətlər barədə danışaraq, hərbi qulluqçularımızın Vətənə, dövlətçiliyə və hərbi anda daim sadiq olduqlarını bildiriblər.

Veteranlar gələcəyin zabitləri olacaq kursantlara öz tövsiyə və nəsihətlərini çatdırıblar.

Görüşə yekun vuran Hərbi İnstitutun rektoru general-mayor E.Məmmədov veteranlara minnətdarlığını bildirərək, şəxsi heyətin vətənpərvərlik tərbiyəsində onların gərəkli fəaliyyət göstərdiklərini qeyd edib.

Sonda xatirə şəkli çəkilib.

**Yalçın Abbasov**

## XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ LİDERLİYİNİ QORUYUB SAXLAYAN DƏSTƏ



67987 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi təyinatlı dəstədir. İctimai asayişin və təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi, qəflətən qarşıya çıxan tapşırıqların icrasına hazır olmaq dəstənin əsas vəzifələrindəndir.

Hərbi hissənin komandiri polkovnik Zəfər Yusibov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə bildirdi ki, mütəmadi olaraq müxtəlif təlimlərə cəlb olunan xüsusi təyinatlılar yüksək peşəkarlıq və xüsusi fədakarlıq nümayiş etdirirlər.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Ramin Məmmədov isə dəstənin 2024-cü ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Dəstə komandiri vəzifəsini icra edən mayor Nemət Ağayev vəzifə borclarından irəli gələn tələblərdən danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, hərbi qulluqçularla təlim-məşqlər davamlı olaraq keçirilir. Şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir.

Xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi barədə söz açan komandir onu da vurğuladı ki, çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır: "Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, nizam-intizamın möhkəmləndirilməsinə, sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".

Mayor N.Ağayev təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunduğunu söylədi. Döyüş hazırlığını ümumilikdə qənaətbəxş hesab edən komandir məşğələlərdə hərbi qulluqçuların fəallığını onların mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olması ilə



əlaqələndirdi. Bildirdi ki, bölmənin döyüş hazırlığının qorunub saxlanılmasında aparılan keyfiyyətli tərbiyə işinin rolu böyükdür. Bu baxımdan dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Fizuli Şahrəliyevin fəaliyyəti danılmazdır.

21 ildir ki, Daxili Qoşunların sıralarında xidmət edən zabit söylədi ki, şəxsi heyətlə tərbiyə işi Vətənə sevgi və sədaqət, Azərbaycan Respublikasının qanunlarına, hərbi andın, hərbi nizamnamələrin və əmrlərin tələblərinə sözsüz əməl etmək və rəislərə hörmət ruhunda aparılır. Həmçinin hərbi qulluqçulara Vətənimizin düşmənlərinə nifrət və nəyin bahasına olursa-olsun, torpağı müdafiə etməyə hazır olmaq hissləri aşılanır. Bu məqsədlə müxtəlif mövzularda ictimai-siyasi hazırlıq məşğələləri, eləcə də həftənin 2-ci və 4-cü günləri tərbiyə işi saatları keçirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının artırılması, qarşıya çıxan tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmaları diqqət mərkəzində saxlanılır.



Mayor N.Ağayev qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün şəxsi heyətin bundan sonra da yorulmadan, əzmlə çalışacağını, komandanlığın etimadını doğruldacağını söylədi. O, intizamlı və fəal hərbi qulluqçulardan baş leytenant Zakir Babayev, gizir Cavid Məmmədov, baş çavuş Asiman Həmzəyev, çavuşlar Mirzəhməd Məmmədov və Eltun Hacıyevin adlarını çəkdi.

**kapitan Nigar Ağayeva**

## "DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASI VƏ HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ BAŞLICA VƏZİFƏMİZDİR"





99713 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri patrul taborudur. Tabor öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşaraq, onları peşəkarlıqla yerinə yetirir. Şəxsi heyətin qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.

Patrul taborunun komandiri mayor Ceyhun Əsgərov məlumat verdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı və taktiki hazırlıqdan məşğələlər keçirilir. Bu zaman hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

O vurğuladı ki, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin əsas məqsədi döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasıdır: "Şəxsi heyətin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissədə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə böyük məsuliyyət düşür. Bu, hərbi qulluqçuların döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qarşıya qoyulan tapşırıqları düzgün və vaxtında icra etməkdir".

Tabor komandiri məlumat verdi ki, keçirilən təlimlər zamanı onun tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin bilik və vərdişlərindən çox asılıdır. Əldə olunan müsbət nəticələr təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır. Hər bir hərbi qulluqçu öz vəzifə borclarını şüurlu surətdə dərk edir və gündəlik xidməti fəaliyyətində hərbi nizamnamələrin tələblərini nümunəvi şəkildə yerinə yetirməyə çalışır".

Keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan tabor komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə tabor komandirinin tərbiyə işləri üzrə müavini mayor Zamin Abbasovun əməyini xüsusilə qeyd etdi.

Sonda patrul taborunun ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən hərbi qulluqçulardan baş leytenantlar Kamran Orucov, Bilman Şabanovun və leytenant Zabil Quliyevin adlarını çəkdi.

Hərbi xidmətdə daim əzmkarlıq, habelə nümunə göstərməyi bacaran patrul taborunun bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 01.04.2025 9:17 Page 1



# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



Qonşu xalqların torpaqlarını zəbt edərək “böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədi güdən ermənilər tarix boyunca soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımlar həyata keçiriblər. Bu soyqırım hadisələrinin ən dəhşətlilərindən biri də daşnak-bolşevik silahlı dəstələri tərəfindən 1918-ci ilin mart-aprel aylarında qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Azərbaycan tarixinə “31 Mart soyqırımı” kimi yazılan həmin hadisələr zamanı on minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə amansızcasına qətlə yetirilib.

1918-ci ilin mart soyqırımı öz amansızlığına və miqyasına görə təkcə Azərbaycanın deyil, bəşər tarixində də ən qanlı faciələrdəndir. Əllərinə düşən fürsətdən maksimum istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçiriblər, diri-diri yandırıblar. Erməni daşnakları və bolşeviklər Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə azərbaycanlı əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədərək 70 mindən çox günahsız insanı xüsusi qəddarlıqla qətlə yetirib, kəndləri yandırıb, sakinləri yurd-yuvalarından didərgin salıblar. Erməni silahlı dəstələri Bakı qəzasında 229, Gəncə qəzasında 272, Zəngəzur mahalında 115, Qarabağda isə 157 kəndi yerlə-yeksan ediblər. Andranikin quldur dəstələrinin 1918-1920-ci illərdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə öldürülüb, yaxud öz dədə-baba torpaqlarından qovulub. Bir çox milli memarlıq incisi, məktəblər, xəstəxanalar, məscidlər və digər abidələr dağıdılıb.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının qərarı ilə 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılmışdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum da təsis edilmişdi. Martın 31-də isə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü elan olunmuşdu. Bununla da azərbaycanlılara qarşı yürüdülən soyqırım və torpaqlarımızın bir əsrdən çox davam edən işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət verməyə cəhd göstərilib. Lakin Cümhuriyyətin süqutu bu sahədə başlanmış işi yarımçıq qoyub.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti müasir dövrümüzdə də davam etdirilib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində daha bir dəhşətli soyqırım törədilib. Gecə vaxtı şəhərə xain hücum nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. Mart soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atıb. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bununla yanaşı, Heydər Əliyevin “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi surətdə deportasiyası haqqında” 1997-ci il 18 dekabr tarixli Fərmanı da Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanlılara qarşı törədilən bu başəri cinayət barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ildə - soyqırımın 100 illiyi ərəfəsində Sərəncam imzalayıb. Bu məqsədlə xüsusi tədbirlər planı hazırlanaraq həyata keçirilib.

Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində verilib. 200 ildən çoxdur ermənilərin “böyük Ermənistan” xülyası çərçivəsində törətdikləri vəhşiliklərin, şəhidlərimizin qisasını Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında alıb. Ermənistanın 30 il davam edən işğalına son qoyulub, ölkəmizin ərazi bütövlüyü bərpa edilib.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# ŞƏHİD AİLƏLƏRİ HƏR ZAMAN DİQQƏT MƏRKƏZİNDƏDİR

Həyatlarını Vətən naminə fəda edən şəhidlərimizin ailələrinə dövlətimiz böyük qayğı göstərir. Xalqımızın şəhidlərin xatirələrinə dərin ehtiramı və onların ailələrinə davamlı mənəvi dəstəyi də vacib amildir. Bütün bu amillər dövlətimizin qüdrətinin və qədirbilən xalqımızın xeyirxahlığının təzahürüdür.



Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən də şəhid hərbi qulluqçularımızın ailələrinə xüsusi diqqət yetirilir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin nümayəndələri müntəzəm olaraq şəhid ailələrinə baş çəkir, qayğıları ilə maraqlanır, üzləşdikləri problemlərin aradan qaldırılmasında öz köməklərini əsirgəmirlər.



67987 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstənin komandirinin tərbiyə işləri üzrə müavini mayor Fizuli Şahrəliyev və bir neçə nəfər xüsusi təyinatlının şəhid hərbi qulluqçumuz baş çavuş Vüqar Cəfərovun ailəsinə baş çəkməsi də göstərilən qayğının nəticəsidir. İlk olaraq, hərbi qulluqçularımız tərəfindən şəhidin Bakıda İkinci Fəxri xiyabandakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Şəhidin ata ocağına gəlişimiz zamanı bizi ilk və çox hörmətlə qarşılayan ailə başçısı İnşallah Cəfərov və şəhidin anası Səmayə Cəfərova oldular. İgid oğlunun silahdaşlarına doğma ata kimi qucaq açan İnşallah kişi bizi görcək bir az kövrəldi. Bala dağı qəddini əymiş mərd insanın iradəsi, təpəri qarşısında təsirlənməmək mümkün deyildi. Bir ata kimi oğul itkisinin acısını hiss etsə də, yenə qəhrəman xüsusi təyinatlının atası olduğuna görə qürurlanırdı.

Səmayə ana qəhrəman oğlunun uşaqlıq, yeniyetməlik illərinin yaddaqalan anlarını bizimlə bölüşdü: “Vüqarın vaxtsız vəfatı ilə barışmaq nə qədər çətin olsa da, vətənpərvər, peşəkar xüsusi təyinatlının anası olduğuma görə fəxr edirəm. Evimizin hər guşəsi onun şəkilləri, xatirələri ilə doludur. Ailəmizin sonbeşiyi, həm də ən sevimlisi olan Vüqar çox tərbiyəli, böyük-kiçik yeri bilən oğul idi. On birinci sinifə kimi idmanla məşğul olmuşdu. İdmana və hərbiyə sevgisi hədsiz idi. Heyif ki, toyunu görmək qismət olmadı bizə”.

Qeyd edək ki, baş çavuş Vüqar Cəfərov 1991-ci il martın 23-də Bakı şəhərində anadan olub.

Vüqar orta təhsilini Bakının Nizami rayonunda yerləşən 70 nömrəli məktəb-liseydə alıb. Müddətli həqiqi hərbi xidmətini 2009-cu ilin oktyabr ayından 2011-ci ilin aprel ayınadək Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasında keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan bir müddət sonra yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. 2011-ci ilin oktyabr ayından etibarən hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda pulemyotçu vəzifəsində xidmətini davam etdirən silahdaşımız yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə hər zaman fərqlənib, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb, “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalı ilə təltif edilib.

Xalqımızın qələbəsilə başa çatmış Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan baş çavuş V.Cəfərov Murovdağ silsiləsi, eləcə də Füzuli və Cəbrayıl rayonlarının bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. 2020-ci il oktyabrın 5-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhadətə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 22 dekabr 2020-ci il tarixli və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Cəfərov Vüqar İnşallah oğlu (ölümündən sonra) “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

“Bu cür qeyrətli oğulun atası olduğuma görə fəxr edirəm” - deyən hörmətli şəhid atası İ.Cəfərovun ən böyük arzusu isə Vüqarın adının əbədiləşdirilməsi üçün övladının bir zamanlar orta təhsil aldığı və özünün də ilk məzunu olduğu 70 nömrəli məktəb-liseyə igid hərbi qulluqçumuzun adının verilməsidir.

**kapitan Nigar Ağayeva**

*Qazilərimiz*

# XİDMƏTDƏ ƏZMKARLIQ VƏ DÖYÜŞDƏ FƏDAKARLIQ ÖRNƏYİ

Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi, antiterror tədbirləri ölkəmizin hərb tarixinin mübarizlik, döyüşkənlik, vətənpərvərlik və qəhrəmanlıq nümunələri ilə zəngin olan səhifələridir. Xalqımızın mərd oğullarının sıraları heç vaxt azalmayıb. Şanlı qələbəmizə aparan yolda çətin sınaqlardan keçmişik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Silahlı Qüvvələrimiz “dəmir yumruq”la düşmənin başını əzərək ərazi bütövlüyümüzü bərpa edib, Qarabağ və Şərqi Zəngəzurun işğalına son qoyub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti həm Vətən müharibəsi, həm də lokal xarakterli antiterror tədbirləri zamanı erməni işğalçılarının darmadağın edilməsində öz şücaəti ilə fərqlənib.

Antiterror əməliyyatında ağır yaralanaraq qazilik məqamına yüksələn döyüşçülərdən biri də ehtiyatda olan əsgər Qardaşov Rahim Adil oğludur.

O, 1996-cı il iyulun 26-da Cəlilabad rayonunun Bayxanlı kəndində doğulub. Adil Qardaşov və Sona Qardaşovanın səkkiz övladından yaşca ən kiçiyidir. İki qardaşı və beş bacısı var. Atası uzun müddət neftçi işləyib, hazırda pensiyaçıdır. Anası isə xəstəlik səbəbindən vəfat edib. Bu çoxuşaqlı, mehriban və zəhmətkeş ailədə boya-başa çatan Rahim milli ruhda tərbiyə olunub, ləyaqətli övlad kimi formalaşıb.

Doğma kəndində yerləşən şəhid Elçin Əliyev adına tam orta məktəbi bitirib. Şagird ikən Azərbaycan dili, kimya, biologiya, coğrafiya, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənləri ilə daha çox maraqlanıb, yeniyetmə vaxtından hərbçi peşəsinə rəğbət bəsləyib.

İdmanın futbol və qarışıq döyüş növləri ilə həvəslə məşğul olub, fiziki hazırlığını daim inkişaf etdirib, zərərli vərdişlərdən uzaq durub.

Hərbi xidmətə yollananadək bir müddət inşaat sahəsində fəhlə işləyib, zəhmətə qatlanıb, valideynlərinə köməyini əsirgəməyib.

2014-cü ilin iyul ayında Rahim müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 67987 saylı hərbi hissəsində hərbi and içib. 25032 saylı hərbi hissəyə göndərilərək sürücü və kiçik mütəxəssislər hazırlayan bölmədə istehkamçı kursu keçib. Sonra 67987 saylı hərbi hissənin təminat bölüyündə xidmətini davam etdirsə də, zəruri hallarda xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları ilə birlikdə öz ixtisası üzrə xidməti tapşırıqların uğurlu icrasını bacarıb. Müddətli həqiqi hərbi xidmətini nümunəvi əsgər kimi başa vurub.

2016-cı ilin yanvar ayında Rahim öz arzusu ilə Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi qrupunda və götürmə qrupunun atıcısı vəzifələrində xidmət edib. Təyin olunduğu vəzifələrdə komandanlığın etimadını doğruldub. Yüksək döyüş hazırlığını qoruyub saxlayıb, peşə bilik və vərdişlərini daim təkmilləşdirib. Xidməti vəzifələrini nümunəvi yerinə yetirdiyinə, təlim-tədris prosesində yüksək nailiyyətlər əldə etdiyinə, tərbiyə işi tədbirlərinin keçirilməsində fəallıq göstərdiyinə, mühüm dövlət tədbirləri zamanı qarşıya qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşdığına görə o, dəfələrlə mükafatlandırılıb. Müsbət şəxsi keyfiyyətlərə malik hərbçi kimi silahdaşlarının hörmətini qazanıb.

2015-ci ildə ölkəmizdə keçirilmiş Birinci Avropa Oyunları zamanı ictimai qaydanın və təhlükəsizliyin qorunması, habelə koronavirus pandemiyası dövründə Gəncə şəhəri və Şəmkir rayonunda karantin rejiminin təmin edilməsi üzrə xidmətə cəlb olunub.



44 günlük Vətən müharibəsi müddətində Rahim Gəncə şəhəri və ətraf rayonların ərazilərindəki komendant postlarında xidmət aparıb. Gəncə erməni ordusu tərəfindən raketlərlə atəşə tutularaq şəhərdə dağıntılar törədilib, dinc vətəndaşlar həlak olub və xəsarət alıblar. Həmin vaxt şəhərdə olmuş hərbi qulluqçularımızın və ailə üzvlərinin də həyatlarına təhlükə yaranıb. Onlar gördükləri bu vəhşilikdən dərindən sarsılıblar. Belə vəziyyətə dözə bilmədiyini komandirlərinə deyən Rahim ön cəbhəyə göndərilməyə hazır olduğunu da bildirib. Lakin müharibənin sonunadək gözlənti içində olsa da, belə bir zərurət yaranmayıb. Qələbə xəbərini o və silahdaşları böyük sevinc, eləcə də qürur hissləri ilə qarşılayıblar.

İşğaldan azad edilmiş Şuşa və Laçın şəhərləri, Xocavənd, Zəngilan, Qubadlı, Kəlbəcər rayonlarında təhlükəsizliyin mühafizəsi üzrə xidmətə cəlb olunub.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq xidmətinin zabiti kapitan Rəşad Bağıyev, xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin heyət rəisi gizir Elcan Yusifzadə, götürmə qrupunun yarımqrup komandiri gizir Emin Göşşüyev, qazilər, ehtiyatda olan kiçik çavuş Bakir Paşayev, istefada olan əsgər Samir Mirzəyev, ehtiyatda olan əsgər Ramin Əliyevin Rahim haqqında fikirlərini öyrəndim. Müsahibim olan bu zabitlər, gizirlər və qazilər məlumat verdilər ki, Rahim vətənpərvər, peşə məsləyinə, hərbi anda sadiq, komandirlərin tələblərini şüurlu şəkildə dərk edərək düzgün yerinə yetirən, təlimlərdə silah-sursatın, xüsusi vasitələrin, texnikanın xüsusiyyətlərini həvəslə öyrənən, öz üzərində çalışan, yoldaşlığda səmimi, dürüst və qayğıkeş hərbi qulluqçu olub. Hərbi hissədə keçirilən inspeksiya yoxlamaları zamanı yaxşı nəticələr nümayiş etdirib.

Silahdaşları bildirdilər ki, 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağda keçirilən antiterror əməliyyatında dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında iştirak ediblər. Sentyabrın 20-nə keçən gecə şəxsi heyət Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Avtomobillərlə hərəkət zamanı yolda erməni işğalçılarının qurduqları ilk pusquya düşüblər. Hərbi qulluqçularımız hücumu dəf edərək düşmənin atəş nöqtələrini susdurublar. Rahim avtomobildən düşərək mövqelənib, avtomat silahı ilə erməni hərbçilərinə atəş açıb. İşğalçıların atdıqları əl qumbaralarından 2 ədədi onun bir neçə metrliyində partlayıb, çoxsaylı qəlpə yarası alıb. Özünü itirmədən cəld kəmərini çıxararaq sümüyü sınan ayağına bağlayıb, qanaxmanı dayandırıb. Döyüşçü yoldaşlarından Cəlil və Famil ona ilk tibbi yardım göstəriblər. Sonra digər yaralılarla birlikdə ərazidən təxliyyə edilib.

Dəstənin şəxsi heyətinin bir qrupu təyin edilmiş hüdudlar istiqamətində piyada şəkildə hərəkət edib. Vəngli kəndi yaxınlığında onlar düşmənin ikinci pusqusuna düşüblər, igidliklə vuruşan 11 nəfər hərbçimiz ərazidəcə şəhidlik zirvəsinə ucalıb. Orada ağır yaralanan polkovnik-leytenant R.Hüseynov və 3 nəfər döyüşçü sağ qalıblar. Ancaq dəstə komandiri növbəti gün hərbi qospitalda şəhadətə yüksəlib. İşğalçıların bu hücumu da geri çəkilmələri ilə nəticələnib.

Kəlbəcərdəki hərbi qospital, Gəncədə yerləşən xəstəxana, Daxili Qoşunların Hərbi Qospitalı, Bakıdakı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda stasionar müalicədə olan Rahimin üzərində cərrahiyyə əməliyyatları aparılıb. Aldığı ağır yaralar ciddi fəsadlar törədib, həmçinin bədənində bəzi xırda ölçülü qəlpələr qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı, daxili işlər nazirinin 3 sentyabr 2024-cü il tarixli əmri ilə əsgər R.Qardaşov “İgidliyə görə” medalı və “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalı ilə təltif edilib.

2024-cü ilin oktyabr ayında Rahim səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə onun sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı olduğu barədə qeydlər öz əksini tapıb.

Qazi hazırda Cəlilabad rayonunun Uzuntəpə kəndində yaşayır. 3-cü qrup əlil kimi pensiya ilə təmin olunur. Sağlamlığını itirdiyindən heç yerdə işləmir. Mütəmadi olaraq müayinə və müalicə kursu keçir.

Məleykə xanımla evli olan Rahimin Mələk və Nərgiz adlı övladları var.

Öz nəslində yeganə qazi olan Rahimlə ailəsi, qohum-əqrəbası, el-obası qürur duyur. Onun Vətən naminə göstərdiyi fədakarlıq həmişə hörmətlə vurğulanacaqdır.

**Yalçın Abbasov**

4_Layout 1 01.04.2025 9:18 Page 1



# YAZIÇI ELXAN ELATLI İLƏ GÖRÜŞ KEÇİRİLİB



Martın 10-da Daxili Qoşunların Hərbi İnstitutunda tanınmış yazıçı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, detektiv janrında yazılmış əsərlərin müəllifi Elxan Elatlı ilə görüş keçirilib.

Hərbi İnstitutun hərbi elmi şöbəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Vüqar Şirinov tədbiri giriş sözü ilə açaraq xalqımızın ziyalıları ilə belə görüşlərin əhəmiyyətini vurğulayıb və yazıçını iştirakçılara təqdim edib.

Daha sonra çıxış üçün söz Elxan Elatlıya verilib. Ədib keçdiyi həyat yolu, habelə bədii yaradıcılığa başlamasını şərtləndirən amillər barədə danışıb. O, detektiv ədəbiyyatın yalnız bədii janr olmadığını, həm də məntiqi təfəkkürün, situasiya analizinin və müşahidə bacarıqlarının inkişafında mühüm rol oynadığını deyib. Bununla yanaşı, detektiv janrın hərbi və hüquq-mühafizə sahələrində



qərarvermə prosesinə, o cümlədən taktiki düşüncə tərzinin formalaşmasına təsiri barədə fikirlərini bölüşüb.

Yazıçı həmçinin müxtəlif əsərlərinin məzmunundakı önəmli məqamlara toxunub, xüsusilə "Qan ləkəsi" və "Cəhənnəmdən gələn səs" kimi romanlarında vətənpərvərlik mövzusuna geniş yer ayırmasını diqqətə çatdırıb. Detektiv ədəbiyyatın oxucunu yalnız hadisələrin inkişafını izləməyə deyil, həm də xüsusatlara diqqət yetirməyə vadar etdiyini söyləyib.

Daha sonra Elxan Elatlıya suallar ünvanlanıb, yazıçının əsərlərində hüquq-mühafizə sahəsi və kriminal təhqiqat proseslərinə yanaşma tərzi ətrafında müzakirələr aparılıb. Kursantlar detektiv ədəbiyyatın onlara hansı bilik və bacarıqları aşıladığı ilə bağlı fikirlərini səsləndiriblər.

Daha sonra müəllif kitablarını imzalayaraq sadiq oxucuları olan hərbi qulluqçulara təqdim edib.

Görüşün sonunda Elxan Elatlıya Daxili Qoşunların Hərbi İnstitutu adından xatirə hədiyyəsi təqdim edilərək, fotoşəkil çəkilib.

**Hərbi İnstitutun ştatdankənar müxbir postu**

NÜMUNƏVİ XİDMƏT

## XİDMƏTDƏ FƏRQLƏNƏN YARIMQRUP KOMANDİRİ

67987 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından olan baş gizir Sənan İbayev 1982-ci ilin mart ayının 1-də Cəlilabad rayonunun Alar kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddəki Heydər Əliyev adına 1 saylı tam orta məktəbdə alıb. 1999-cu ildə təhsilini başa vuran Sənan Azərbaycan Beynəlxalq Universitetinin İqtisadiyyatın hüquqi tənzimlənməsi fakültəsinə qəbul olunub. 2003-cü ildə ali təhsilin bakalavr pilləsini bitirib, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının xüsusi təyinatlı bölməsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Nümunəvi xidmətinə görə "çavuş" hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə təyin olunub.

2004-cü ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətini başa vuran gənc bir müddət mülki sahədə çalışsa da, 2007-ci ildə öz uşaqlıq arzusunu reallaşdırmaq məqsədilə Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə qəbul üçün müraciət edib. Elə həmin ilin mart ayından Daxili Qoşunların sıralarındadır.

Yeniyetməlik çağlarından idmanın ağır atletika növü ilə məşğul olub. Hərbi xidmətdə olarkən idman yarışlarına qatılıb və yüksək



nəticələr qazanıb.

Hazırda 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun komandiri - baş istehkamçısı vəzifəsindədir.

Nümunəvi xidmətinə, yüksək döyüş hazırlığı və hərbi intizam nümayiş etdirdiyinə görə cari ildə "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə təltif olunub.

**kapitan Nigar Ağayeva**

# NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏMİRİ TEXNİKİ ŞƏRTLƏRƏ ƏSASƏN YERİNƏ YETİRİLİR



Daxili Qoşunların Avtomobil və zirehli texnika təmiri bazası uzun illərdir uğurla fəaliyyət göstərir. Baza öz işini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunların Avtomobil və zirehli texnika təmiri bazasının Əsasnaməsi"nin tələblərinə əsasən təşkil edir. Əsas vəzifəsi Daxili Qoşunların balansında olan nəqliyyat vasitələrinin təmirinin həyata keçirilməsidir. Bazanın şəxsi heyəti hərbi hissələrdə istismar müddəti başa çatmış, ləğv olunması və sökülməsi barədə qərar verilmiş nəqliyyat



vasitələrinin, habelə onların aqreqatlarının saf-çürük edilməsində iştirak edir. Bundan əlavə, təmir işlərinin texnoloji cəhətdən düzgün aparılması, bu zaman qabaqcıl təcrübədən istifadə edilməsi, eləcə də təhlükəsizlik qaydalarına ciddi riayət olunması qarşıya qoyulan mühüm tapşırıqlardandır.

Avtomobil və zirehli texnika təmiri bazasının rəisi kapitan Vasif Ələsgərov bildirdi ki, bazanın üzərinə düşən əsas vəzifələr qoşunların balansında olan bütün növ texnikalarda təmir işlərinin aparılması, zərurət yarandıqda təxirəsalınmaz xidmət göstərilməsidir. Bazanın fəaliyyəti Daxili Qoşunlar komandanlığının xüsusi diqqət mərkəzindədir. Burada qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün lazımi şərait və avadanlıqlar mövcuddur. Təmir olunan nəqliyyat vasitələrinin üzərində təmir işləri texniki şərtlərin və təhlükəsizlik qaydalarının tələblərinə əsasən həyata keçirilir. Daxili qayda-qanuna, müəyyən edilmiş iş rejiminə ciddi riayət olunur.

Kapitan V.Ələsgərov nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan texniklər - gizir Tural Vəliyev, baş çavuşlar Polad Əsədov və Vüsal Qasım-zadənin adlarını qeyd etdi.

Avtomobil və zirehli texnika təmiri bazasının şəxsi heyətinə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## DÖYÜŞ YOLU KEÇMİŞ BACARIQLI SÜRÜCÜ

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən çavuş Novruz Qocayev vəzifələrini məsuliyyətlə yerinə yetirir.

O, 1989-cu ilin sentyabr ayının 20-də Zaqatala rayonunun Qımır kəndində doğulub. Orta təhsilini 1995-2006-cı illərdə doğma kəndində alıb. 2007-ci ilin oktyabr ayından 2009-cu ilin aprel ayınadək Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayaraq müxtəlif hərbi hissələrdə sürücü vəzifəsində xidmət keçən çavuş N.Qocayev 2023-cü ilin yanvar ayında 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun sürücüsü vəzifəsinə təyin edilib.

2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq ön cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş tapşırıqlarını icra



edib. O, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı", daxili işlər nazirinin 26 iyun 2019-cu il, 9 mart 2023-cü il tarixli əmrləri ilə "Qüsursuz xidmətə görə" 3-cü və 2-ci dərəcəli medalları ilə təltif olunub.

**kapitan Şahin Cəfərzadə**

# UÇUŞ HEYƏTİNİN SAĞLAMLIĞININ QORUNMASI DAVAMLI OLARAQ NƏZARƏTDƏ SAXLANILIR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

17077 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidmətinin rəisi - tibb məntəqəsinin rəisi tibb xidməti mayoru Günel Nəsirli şəxsi heyətin tibbi təminatını həyata keçirir, uçuş heyətinin sağlamlığının və iş qabiliyyətinin qorunub saxlanılmasına yönələn tədbirlərin görülməsinə cavabdehlik daşıyır. 2013-cü ildən Daxili Qoşunların sıralarındadır. 99713, 12576 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib, qarşıya



qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib. Nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

Tibb xidməti mayoru G.Nəsirli bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya uçuşların tibbi təminatı ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verilir. Uçuş heyətinin sağlamlığının qorunması davamlı olaraq nəzarətdə saxlanılır. Belə ki, uçuş öncəsi heyət üzvünün hər biri tibbi baxışdan keçirilir, əgər hərbi qulluqçuların səhhətlərində problemlər yaranarsa, onlar uçuşlardan kənarlaşdırılırlar. Ehtiyac yarandıqda hərbi qulluqçuların Daxili Qoşunların Qospitalına göndərilmələri təmin olunur.

Bundan əlavə, sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmasına, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

**kapitan Xədicə Hacızadə**

## BÖLÜYÜN QABAQCIL HƏRBİ QULLUQÇUSU

99713 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Nicat Əkbərovdur. O, 2003-cü il aprelin 25-də Tovuz rayonunun Alakol kəndində doğulub. 2020-ci ildə Tovuz rayonunda yerləşən 1 nömrəli tam orta məktəbi bitirib. 2020-2024-cü illərdə Azərbaycan Dövlət Aqrar Universitetində ali təhsil alıb. 2024-cü ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Komendant bölüyünün komandanlığı tərəfindən müsbət xarakterizə olunur, bacarığı, nizam-intizamı ilə kollektiv arasında hörmət qazanıb. Vəzifələrini layiqincə yerinə yetirir.

Əsgər N.Əkbərov daim öz üzərində çalışır, biliyi və əzmkarlığı sayəsində qəflətən yarana biləcək istənilən təhlükəni dəf etməyə qadirdir. Çətinliklərə dözümlüdür, ayıq-sayıqdır. O, döyüş hazırlığını gündən-günə artırmaq üçün səy göstərir. Komendant bölüyünün sıralarında xidmət etməkdən qürur du-



yan hərbi qulluqçumuz bundan sonra da qarşıya qoyulan istənilən döyüş tapşırığını uğurla icra etməyə hazırdır.

**kapitan Xədicə Hacızadə**

# BƏŞƏRİYYƏTİ MƏHVƏ APARAN "AĞ ÖLÜM"Ə - NARKOMANİYAYA "YOX" DEYƏK!

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, oğurluğa, adam öldür-



məyə və digər cinayətlərə əl ata bilər.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da müvafiq Dövlət Proqramına uyğun olaraq məqsədyönlü işlər aparılır.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşun-



larda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş müvafiq tədbirlər planının aidiyyəti bəndlərinin icrası vaxtlı-vaxtında təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### İsrail Müdafiə Qüvvələri növbəti F-35I döyüş təyyarələrini təhvil alıb

İsrail Müdafiə Qüvvələri "Lockheed Martin" şirkətinin istehsalı olan üç ədəd F-35I ("Adir") döyüş təyyarəsini təhvil alıb. "Poliqon" xəbər verir ki, bu barədə İsrail Müdafiə Qüvvələri məlumat yayıb.

Məlumatda bildirilib ki, Nevatim aviaba-



zasına eniş edən döyüş təyyarələri İsrail Hərbi Hava Qüvvələrinin (HHQ) "Cənub aslanları" (116) eskadrilyasında xidmət göstərəcək.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı baş gizir Əli Əsgərova **atasının** vəfatından kədərləndiyini bildirir dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan mayor Qurbanxan Cəniyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000